New Baku Post

*09.06.2012*

**Hamlet İsaxanlı**

## XEYRİYYƏÇİLİK VƏ QÜDRƏT

Başqalarını sevmək gözəl işdir. Tək kasıblara və çox ehtiyacı olanlara yardım etməklə kifayətlənməyib dünyanı yaxşılaşdırmaq, həyatı keyfiyyətli etmək üçün göstərilən şəxsi təşəbbüsə filantropiya deyilir; lüğəti mənası insansevərlik, insanpərvərlik, humanizm deməkdir.

Xeyriyyəçilik, xeyirsevərlik insanın ətrafdakıları düşünmək istedadından, sosial məsuliyyət şüurundan xəbər verir. H.B.Zərdabi məktəbin, qəzetin, teatrın inkişafı üçün əsas mexanizmi xeyriyyəçilikdə görürdü. Hacı Zeynalabdin Tağıyev ən böyük xeyriyyəçi kimi Azərbaycan tarixində layiqli yer tutdu.

Amerika Birləşmiş Ştatlarını dünyanın ən güclü dövləti edən səbəblərdən biri filantropiyanın müqayisə olunmaz dərəcədə geniş kök atmasıdır. Filantropiya amerikan sosial şüurunun, milli psixologiyasının vacib ünsürü sayılır. ABŞ əhalisinin təqribən 90 faizi xeyriyyəçiliklə məşğul olur. Amerika ali məktəblərini dünya liderləri edən birinci səbəb də, yəqin ki, xeyriyyəçilikdir.

Nüfuzlu ali məktəbin gücü onun malik olduğu sərbəst fondla (endowment`lə), yəni ona bağışlanılmış pul, sərvət ilə birbaşa bağlıdır. Maliyyə böhranı öncəsi 2007-ci ildə Harvard Universitetinin fondunda 34,9 milyard, Yale Universitetində 22,5, Stanford Universitetində 17,2 milyard dollar vardı.

John Harvard kitabxanasını və əmlakının yarısını yeni təsis olan ali məktəbə verdi (1638) və Harvard Universiteti qanad açdı! Amerikanın 4 New England koloniyasının xalqa müraciətinə fikir verin: hər ailə Harvarda heç olmazsa 1 şilling versin. 1649-cu ildə ilk dəfə bir məzun Harvarda böyük torpaq sahəsi bağışladı. Elihu Yale adlı tacir Collegiate School of Connecticut`a böyük hədiyyə verdi (1718), ali məktəbin adı dəyişdirildi - Yale Universiteti oldu!

Məşhur milyarder Andrew Carnegie`nin fikri (1889-cu il) ibrətamizdir: “Zənginlər öz sağlıqlarında sərvətini ailəsinə vermək əvəzinə onu xalqa versinlər, xalq malı etsinlər.”

John D.Rockfeller varidatının yarıdan çoxunu xeyriyyəçiliyə sərf etdi.

Leland Stanford və xanımı Jane 16 yaşına çatmamış tək oğullarını itirəndə onun xatirəsinə universitet qurmağı qərara aldılar, sərvətlərini bu işə qoydular. 1891-ci il Stanford Universiteti fəaliyyətə başladı. İl yarım sonra dul qalan Jane Universitetin maliyyə böhranından çıxması və bağlanmaması üçün nəyi varsa verdi, hətta zinət əşyalarını hərraca çıxardı. Jane sonralar öz cəvahirat fondunu universitet kitabxanasının inkişafı üçün verdi. Özəl ali məktəblər (Harvard, Stanford, Yale və b.) belə inkişaf etdi.

1921-ci il şəxsi xeyriyyəçilərə vergi güzəşti qanunu qəbul edildi, 1935-ci ildə bu, şirkətlərə də aid edildi. Özəl universitetlər əlavə dəyər vergisindən azad idi, üstəlik ali məktəblərə yardım edən şəxs və şirkətlər böyük vergi güzəştləri aldılar!!! Müqayisə üçün: Azərbaycanda özəl ali məktəblər 18% əlavə dəyər vergisi verir (bunun dünyada bənzəri yoxdur), ali məktəblərə kömək edənlərə də heç bir güzəşt yoxdur, zəngin adamlar ali məktəbə yardım etməkdən çəkinirlər.

Ford Fondu özəl ali məktəb və xəstəxanalar üçün 560 milyon dollar ayırdı (1955). Danforth Fondu Washington Universitetinə 100 milyon (1986), T.Bione Pickens öz alma materi Oklahoma Dövlət Universitetinə təqribən 500 milyon dollar bağışladı (2010).

Norton Simon məşhur Los Angeles Kalifornia Universitetinə (Xəzər Universitetinin ilk tərəfdaşı!) dəyəri təqribən 750 milyon olan sənət kolleksiyası bağışladı (1987). Perelman ailəsi Pensilvaniya Universitetinə 225 milyon hədiyyə etdi (2011); tibb fakültəsinin adı dəyişdirildi - Perelman School of Medicine oldu!